**Respublika.- 2022.- 28 may. S. 22.**

# Humanist və demokratik ideyalar carçısı

**Azərbaycan satirik şeirinin görkəmli nümayəndəsi, milli ədəbiyyatımızda tənqidi realizmin banisi Mirzə Ələkbər Sabir xalqımızın humanist və demokratik ideyalarının carçısı, Molla Nəsrəddin satirik şeir məktəbinin yaradıcısı, türk-müsəlman dünyasında satirik şeirin təmsilçisi kimi tanınır.**

Özünəməxsusluğu, orijinallığı ilə seçilən Sabir ədəbi yaradıcılığı xalqının azadlıq ideyaları, istiqlalı uğrunda mübarizəyə, onu qəflət yuxusundan oyatmağa xidmət etmişdir. Lirik şeirlər, satiralar müəllifi tərcüməçiliklə də məşğul olmuş, felyetonları və məqalələri ilə məşhurlaşmışdır. İlk şeirlərini əsasən klassik lirika ənənələri əsasında qələmə almış şair ömrünün sonuna qədər cahilliyə, geriliyə qarşı, xalqının inkişafı, tərəqqisi yolunda yorulmadan mübarizə aparmış, yoxsulları, əzilənləri, hüquqları əlindən alınan insanları qələmi, satirası ilə müdafiə etmişdir. Mirzə Ələkbər Sabir qələmindən çıxan hər bir şeiri, hər bir misrası ilə dövrünün çatışmazlıqlarını tənqid atəşinə tutmuş, ədəbiyyat, dil, tarix, din, təhsil, tərbiyə, məktəb, milli adət-ənənələr və s. mövzularda saysız-hesabsız şeirləri, felyetonları ilə Azərbaycan ədəbiyyatı tarixində orijinallığı, böyük fikri-estetik qüvvəsi ilə seçilən poeziya məktəbi yaratmışdır.

M.Ə.Sabir 1862-ci il mayın 30-da Şamaxı şəhərində anadan olmuşdur. Kiçik baqqal dükanının sahibi olan Zeynalabdinin Səltənət adlı qadınla izdivacından olan 9 uşaqdan ikincisi gələcəyin qüdrətli qələm sahibi olacaq Ələkbər



Sabir idi. İslam dininə etiqadın çox güclü olduğu bir vaxtda böyüyən Sabiri də valideynləri ruhani görmək istəmiş, bu ümidlə atası onu səkkiz yaşında mollaxanaya qoymuşdu. Ələkbər kiçik yaşlarında ikən mollaxana məktəbində ərəb, fars dillərini öyrənmiş, Şərq ədəbiyyatı nümunələri ilə tanış olmuşdu. Lakin gələcəyin qüdrətli sənətkarı, ədəbiyyat xadimi olacaq Ələkbərin sonralar satira hədəfinə aldığı ilk bədii yaradıcılıq mövzusunun da elə mollalar, mollaxanalar olacağı heç kimsənin ağlının ucundan belə keçməmişdi. Valideynlərinin onu 8 yaşında ikən oruc tutmağa, namaz qılmağa məcbur etməsindən, mədrəsə məktəbinin tədris üsulundan narazı olan Sabir yazırdı:

*Tutdum orucu İrəmazanda,*
*Qaldı iki gözlərim qazanda,*
*Mollam da döyür yazı yazanda*

Bir müddət sonra - 12 yaşında ikən Ələkbər Tahirzadə 1874-1883-cü illərdə dövrünün tanınmış maarifpərvər şairi Seyid Əzim Şirvaninin yeni üsulda açdığı məktəbdə oxumuş, bu isə dünyəvi elmlərə böyük həvəs göstərən Ələkbərin dünyagörüşünün formalaşmasında, inkişafında mühüm rol oynamışdır. Məktəbdə müəlliminin Ələkbərə fars dilindən şeirlər tərcümə etdirməsi və bu tərcümələri oxuyub məsləhətlər verməsi onun yaradıcılıq həvəsini, istedadını daha da artırmışdı. Getdikcə Seyid Əzimlə Ələkbər Sabir arasındakı müəllim-şagird münasibətləri ədəbi dostluğa çevrilmiş, onu elmə, təhsilə qırılmaz tellərlə bağlamışdı. Bu isə Ələkbər üçün yaradıcılıq təcrübəsindən əlavə, həm də ədəbiyyata gəlişin hazırlıq mərhələsi idi. Bir-iki il sonra atası oğlunu təhsildən ayıraraq dükanında köməkçi kimi işlətsə də, elm və ədəbiyyata böyük həvəsi olan Ələkbər yazıb-oxumağa davam etmişdir.

Abbas Səhhətlə səmimi dostluq münasibətləri Mirzə Ələkbər Sabiri şeirə-sənətə daha da çox bağlamış, Ağəli bəy Əfəndizadə Naseh və Məhəmməd Tərrahla birlikdə təşkil etdikləri kiçik ədəbi məclis Şamaxıda maarifçilik və ədəbiyyatın inkişafında mühüm addım olmuşdur. Mirzə Ələkbər Sabirin məşhur ədəbiyyatşünas Firudin bəy Köçərli və Həsən bəy Zərdabi ilə tanış olması onun ədəbi dünyagörüşünün zənginləşməsinə müsbət təsir göstərmiş, eyni zamanda Tiflisdə 1903-cü ildən nəşrə başlayan "Şərqi-Rus" qəzetində mənzum təbriknaməsinin dərc olunması onu sənət və mətbuat aləminə daha da yaxınlaşdırmışdı. "Həyat" qəzetində 1905-ci ildə çap olunan məşhur "Beynəlmiləl" şeiri artıq Sabirin yetkin dünyagörüşündən və xüsusi bədii istedadından xəbər verirdi. 1906-cı ildən Cəlil Məmmədquluzadənin redaktorluğu ilə Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalı onun yaradıcılığında satira meyillərini gücləndirmiş, Mirzə Cəlillə məsləkdaş etmişdir.

Hələ Şamaxıda ibtidai məktəbdə oxuyarkən müəllimi, görkəmli şair Seyid Əzim Şirvaninin təsiri ilə yaradıcılığa başlayan Mirzə Ələkbər Sabir satirik şeirlərlə yanaşı, lirik şeirlər, klassik üslubda qəzəllər, ictimai-siyasi şeirlər və uşaq şeir nümunələri yaratmış, öz şirin nəzmi, özünəməxsus dəsti-xətti, qəlbəyatan, zövqoxşayan, dövrünün, zəmanəsinin aynası olan şeirləri ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfə vermişdir. Cəmiyyətdə mövcud olan çatışmazlıqlara tənqidi münasibəti, millətinin, xalqının inkişafına əngəl yaradan cəhalət, mövhumat əleyhinə barışmaz mübarizəsi, qadın azadlığı məsələsi Sabirin satira yaradıcılığının əsas qayəsini təşkil etmişdir. Azadlıq idealına bütün ruhu ilə bağlı olan şair bu səpkidə saysız-hesabsız ölməz sənət nümunələrinin müəllifidir. Onun "Dindirir əsr bizi" şeiri şairin millətinin, xalqının dirçəliş arzusunun ifadəsidir:

*Dindirir əsr bizi, dinməyiriz,*
*Açılan toplara diksinməyiriz,*
*Əcnəbi seyrə balonlarla çıxır,*
*Biz hələ avtomobil minməyiriz!*

Xalqın, millətin gələcəyi olan uşaqların təhsil alması, məktəbdə oxuması, elmin, təhsilin mahiyyəti, vacibliyi Sabir poeziyasının aparıcı mövzularından olmuşdur. Şair bu istək və arzusunu "Get məktəbə, cavanım" şeiri ilə ifadə etmişdir:

*Elm öyrən, imtahan ver,*
*Öz fəzlini nişan ver.*
*Qədrin bil elmü fənnin,*
*Elmin yolunda can ver.*
*Ey gözüm, ey canım!*
*Get məktəbə, cavanım!*

Azərbaycan satirik şeirinin görkəmli nümayəndəsi olan Mirzə Ələkbər Sabirin yaradıcılığında "Molla Nəsrəddin", "Həyat" jurnallarının xüsusi yeri və təsiri olmuşdur. Milli oyanışa nail olmağın yolunu elmdə və təhsildə, özünüdərketmədə görən, məktəbi dirçəliş və tərəqqinin əsas hərəkətverici qüvvəsi kimi qiymətləndirən, mənəvi əsarətin əsas baiskarları olan yalançı din xadimlərinə, cahil mollalara barışmaz münasibət bəsləyən şair zalımlara, haqsızlığa qarşı cəsarətlə mübarizə aparmışdır:

*Bir dövrdə kim, silqü səfa qalmayacaqmış,*
*Bilməm belə dövranları neylərdin, ilahi?!*
*Məzlumların göz yaşı dərya olacaqmış,*
*Dəryaları, ümmanları neylərdin, ilahi?!*

Müasirliyi, xəlqiliyi, yüksək sənətkarlığı və dərin realizmi ilə Azərbaycan mədəniyyətinin, bədii və ictimai fikrinin tərəqqisində müstəsna rol oynamış şairin "Hophopnamə" adı ilə məşhur şeirlər məcmuəsi xalqımızın varlığının və Mirzə Ələkbər Sabir irsinin aynasıdır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**